# Avropa İttifaqı Azərbaycanla tərəfdaşlığı inkişaf etdirməkdə maraqlıdır

## Avropa İttifaqı Şurasının prezidenti Donald Tuskun ölkəmizə səfəri qurumla Azərbaycan arasında ikitərəfli əlaqələrin inkişaf etdirilməsi üçün böyük potensial və yaxşı zəmin olduğunu bir daha təsdiqlədi



**Xarici siyasətində ikitərəfli və beynəlxalq təşkilatlar çərçivəsində əlaqələrin qurulmasına xüsusi önəm verən Azərbaycanın bu sahədə qazandığı uğurlar göz qabağındadır. Avropa İttifaqı Şurasının prezidenti Donald Tuskun ölkəmizə səfəri, səfər çərçivəsində keçirilən görüşlərdə və mətbuat konfransında səsləndirilən fikirlər də bu kimi məqamlara aydınlıq gətirdi. Daim qeyd olunduğu kimi, qarşılıqlı səfərlər münasibətlərin inkişafında, yeni prioritetlərin müəyyənləşdirilməsində stimulverici amil rolunu oynayır. Dövlətimizin başçısı İlham Əliyev bu məqamı bəyanatında diqqətə çatdırmışdır: "Sizin səfəriniz Avropa İttifaqı ilə Azərbaycan arasında əlaqələr üçün böyük əhəmiyyət kəsb edir. Biz gələcəkdə bu tərəfdaşlığı inkişaf etdirmək istəyirik. Avropa İttifaqı ilə Azərbaycan arasında uzun illərdir davam edən fəal əməkdaşlığın böyük dəyərə malik olmasından çox məmnunuq."**

Səfər çərçivəsində aparılan müzakirələrdən bir daha aydın oldu ki, Avropa İttifaqı Azərbaycanla tərəfdaşlığın inkişaf etdirilməsində olduqca maraqlıdır və istərlıdır. Qurum Azərbaycanı yüksək potensiala malik ölkə hesab edir, onun beynəlxalq münasibətlər sistemində rolunu yüksək dəyərləndirir.

Bu fakt inkaredilməzdir ki, Azərbaycanın malik olduğu təbii resurslardan səmərəli istifadə etməsi dövlətimizin iqtisadi və siyasi mövqeyinin möhkəmləndirilməsinə öz müsbət təsirini göstərir. Bu gün ölkəmizin etibarlı tərəfdaş kimi mövqeyini möhkəmləndirməsində də bu amilin rolu böyükdür. Belə ki, Azərbaycan iştirakçısı və təşəbbüsçüsü olduğu layihələrin icrası ilə ölkələr, xalqlar arasında dostluq, əməkdaşlıq münasibətlərinin inkişafına öz töhfəsini verir. Qarşılıqlı səfərlər çərçivəsində bu fikir hər zaman önə çəkilir ki, Avropa İttifaqı Avropa ölkələrinin enerji təhlükəsizliyinin təmin olunmasında Azərbaycanın rolunu və rəsmi Bakının müəllifi olduğu enerji layihələrinin əhəmiyyətini yüksək dəyərləndirir. "Azərbaycan enerji sahəsində bizim etibarlı və strateji tərəfdaşımızdır" söyləyən Avropa İttifaqı Şurasının prezidenti Donald Tusk bəyanatında bildirmişdir ki, biz bu tərəfdaşlığı daha da genişləndirmək istəyirik: "Bu gün biz ümumi strateji marağımıza xidmət edən Cənub Qaz Dəhlizi layihəsinin inkişaf etdirilməsi və rəqiblərimizin nə etməsindən asılı olmayaraq onun vaxtında tamamlanmasını təmin etməklə bağlı həmrəyik... Azərbaycanın regionda Avropa İttifaqının ən əsas kommersiya tərəfdaşlarından biri olmaq potensialı var. Avropa İttifaqı artıq Azərbaycanın əsas ticarət tərəfdaşıdır və onun önəmli sərmayədarlarından biridir."

Qeyd etdiyimiz kimi, Azərbaycanın Avropanın enerji təhlükəsizliyinin təminatında artan rolu onun beynəlxalq münasibətlər sisteminin aparıcı qüvvəsi kimi yeri və mövqeyini möhkəmləndirir. Dövlətimizin başçısı İlham Əliyevin çıxışlarında əksini tapan bu fikir bu kimi məqamlara işıq salır: "Enerji təhlükəsizliyi əslində hər bir ölkənin milli təhlükəsizliyi məsələsidir. Bu gün enerjini siyasətdən, iqtisadiyyatdan ayırmaq qətiyyən mümkün deyil. Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində biz hamımız tərəfdaşlarımızla iştirak edəcəyik." "Əsrin müqaviləsi"nin 20 illiyinə və Cənub Qaz Dəhlizinin təməlinin qoyulmasına həsr olunmuş təntənəli mərasimdə cənab İlham Əliyev bu vacib məqamı xüsusi vurğulamışdır ki, keçirilən mərasim enerji sahəsində bu günə qədər görülən işlərin zirvəsidir: "Əgər əvvəlki dövrlərdə dediyim məsələlər öz həllini tapmasaydı, bu gün Cənub Qaz Dəhlizindən söhbət belə gedə bilməzdi... Əlbəttə, biz gələcəkdə çalışmalıyıq ki, bütün bu işləri tərəfdaş ölkələrlə birgə edək, əlaqələndirmə yüksək səviyyədə olmalıdır." Azərbaycanın təşəbbüskarı olduğu Cənub Qaz Dəhlizinin icrası nəticəsində həm Azərbaycanın, həm də qonşu və Avropa ölkələrinin böyük fayda götürəcəyi, ölkəmizin bu sahədə də liderlik keyfiyyətlərini göstərdiyi inkaredilməzdir.

Son illərdə enerji layihələrinin coğrafiyasının genişləndirilməsi, şaxələndirmə siyasətinin iştirakçı dövlətlərin maraqları baxımından bir daha nəzərdən keçirilməsi, alternativ variantların gündəmə gətirilərək siyasi və iqtisadi əhəmiyyətinin beynəlxalq müzakirəyə çıxarılması bölgədə və dünya birliyində sabitlik və əmin-amanlığın möhkəmlənməsinə yönəlmiş qlobal məsələlərin danışıqlar vasitəsilə həllinə inamı artırır. Rəqabət qabiliyyəti baxımından MDB məkanında birinci olan Azərbaycanın iqtisadi uğurlarını təmin edən, regionda sülhün təminatı üçün səylərini artıran neft-qaz amilinin əhəmiyyəti bütün səviyyələrdə xüsusilə vurğulanır. Ölkə Prezidenti bildirir ki, biz öz enerji təhlükəsizliyimizi çoxdan təmin etmişik və bu gün başqa ölkələrin enerji təhlükəsizliyinin təmin edilməsində öz rolumuzu oynayırıq. Bu rol müsbət roldur. Bunu bizim tərəfdaşlar da qiymətləndirirlər. Azərbaycan heç vaxt öz enerji resurslarından başqa məqsədlər üçün istifadə etməmişdir. Bizim bu sahədəki fəlsəfəmiz və yanaşmamız ondan ibarətdir ki, enerji resursları əməkdaşlığı dərinləşdirməlidir, birliyi möhkəmləndirməlidir və əlbəttə ki, biz bu siyasəti apararaq öz milli maraqlarımızı təmin edirik. Bu gün həm bölgədə, həm də dünyada bizim maraqlarımız təmin edilir.

Xatırladaq ki, Avropa Komissiyasının sədri Joze Manuel Barrozunun ölkəmizə səfəri çərçivəsində keçirilən görüşlərdə də bu inam ifadə edilmişdir ki, Azərbaycan Avropa İttifaqına mümkün qədər yaxın olmaq arzusundadır və bu əlaqələrin gələcəkdə böyük potensialı vardır. 2011-ci ildə Azərbaycanla Avropa İttifaqı arasında imzalanan Cənub Qaz Dəhlizi haqqında" Birgə Bəyannaməni əlaqələrin inkişafında başlanğıc kimi dəyərləndirən Avropa Komissiyasının sədri Azərbaycanın bu gün Avropa İttifaqının ən böyük və etibarlı enerji tərəfdaşlarından biri olduğunu bildirmişdi. Qeyd edək ki, həmin Birgə Bəyannamədə ölkəmizin Avropanın enerji təhlükəsizliyinin təminatında rolu yüksək qiymətləndirilərək, əməkdaşlıq əlaqələrinin genişləndirilməsi üçün böyük potensialın mövcudluğu bildirilmişdir. Dövlətimizin başçısı, eyni zamanda, bu əminliyi ifadə etmişdir ki, imzalanmış sənədlər uğurla həyata keçiriləcək və Azərbaycan qaz potensialından öz xalqının rifahı, ölkəmizin gələcək inkişafı və Avropadakı tərəfdaşlarının enerji təhlükəsizliyinin təmin edilməsi üçün istifadə edəcək. Bu tərəfdaşlıq nəinki illər, onilliklər boyu olacaq.

Azərbaycanın şaxələndirilmə məsələsinə ilk yol açan bir ölkə rolunu oynadığını diqqətə çatdıran Avropa İttifaqı rəsmiləri qeyd edirlər ki, ölkəmiz öz ixrac imkanlarını genişləndirməklə Avropanın enerji təhlükəsizliyinin təminatına töhfələr verir. Cənub Qaz Dəhlizinin təməlinin qoyulmasına həsr olunmuş təntənəli mərasimə videomüraciətində Joze Manuel Barrozunun qeyd etdiyi bu fikirləri bir daha xatırlatmaq istərdik. O bildirmişdir ki, bu gün Azərbaycan Avropanın neft ixracatında mühüm rol oynayır. Cənub Qaz Dəhlizi yalnız kəmər deyil, XXI əsrin mühüm strateji, enerji dəhlizidir. Cənub Qaz Dəhlizi XXI əsrin layihəsi olacaq. Bu kontekstdə layihənin hər mərhələsində Prezident İlham Əliyevin rəhbərlik qabiliyyəti xüsusi olaraq önə çəkilmişdir.

Dünya əhəmiyyətli enerji layihələrinin reallığa çevrilməsi ilə regional iqtisadi inkişafın aparıcı qüvvəsinə və Avratlantik məkanın enerji təhlükəsizliyinin təminatçısına çevrilən, iqtisadi artımın sürətinə görə dünya dövlətləri arasında birinciliyini qoruyan Azərbaycanın inkişaf strategiyası qabaqcıl təcrübə kimi nümünə göstərilir. Enerji amilinin gündəlikdə prioritet məsələlərdən biri kimi dayandığını daim önə çəkən Prezident İlham Əliyev bildirir ki, enerji siyasəti dostluğa və əməkdaşlığa xidmət etməli, millətləri, xalqları bir-birinə birləşdirməlidir. Avropa İttifaqına daxil olan 27 dövlətin maraqlarına uyğun olan Azərbaycanın enerji siyasəti bölgədə regional əməkdaşlığın genişlənməsi üçün etibarlı təminatdır. Xarici ölkələrə səfərləri zamanı da Azərbaycanın iqtisadi imkanlarına diqqəti yönəldən, enerjinin nəql olunması sisteminin şaxələndirilməsində ölkəmizin rolunu xüsusi vurğulayan, gerçəkləşməsi çoxlarına əfsanə kimi görünən layihələrin reallaşması üçün təşəbbüskarlığını artıran Prezident İlham Əliyev bu mövqeyi açıqlayır ki, Azərbaycanın tərəfdaş, müəllif və təşəbbüsçü kimi iştirak etdiyi bütün layihələrdə xalqın milli maraqları, dövlətin mənafeyi hər şeydən üstün tutulmalıdır.

Ölkəmizin Avropa dövlətləri üçün etibarlı tərəfdaş olması dəfələrlə təsdiq olunmuş həqiqətdir. Avropa İttifaqı Şurasının prezidenti Donald Tuskun səfəri qurumla ölkəmiz arasında ikitərəfli əlaqələrin inkişaf etdirilməsi üçün böyük potensial və yaxşı zəmin olduğunu bir daha nümayiş etdirdi. Bir daha qeyd edildi ki, Azərbaycan bir çox ölkələrlə malik olduğu strateji tərəfdaşlıq münasibətlərini Avropa İttifaqı ilə də qura və inkişaf etdirə bilər. Bu münasibətlər bərabərhüquqlu, səmərəli olmalı, qarşılıqlı etimada əsaslanmalıdır. Tərəfdaşlıq münasibətlərinin əsasını təşkil edən razılaşdırılmış prinsiplərə riayət olunması hər iki tərəf üçün mütləq xarakter daşımalıdır. Dövlətimizin başçısı İlham Əliyev Avropa İttifaqı Şurasının prezidenti Donald Tuskla birgə mətbuat konfransında əməkdaşlığın əsas istiqamətlərini diqqətə çatdıraraq bildirmişdir ki, Azərbaycan siyasi, iqtisadi və humanitar sahələr üzrə qarşılıqlı əməkdaşlıq əlaqələrini inkişaf etdirməyə hazırdır: "Avropa İttifaqının əksər üzv ölkələri ilə bizim siyasi, iqtisadi və digər sahələrdə çox fəal münasibətlərimiz var. Bu, mənzərənin müsbət olduğunu göstərir və əlbəttə ki, cənab Prezidentin səfəri də yaxşı tərəfdaşlığımızın əyani göstəricisidir. Bu, gələcəkdə fəal və məhsuldar əməkdaşlıq üçün yol açır."

**Yeganə Əliyeva,**
***"İki sahil"***